“Kommersiya hüquqi şəxsinə seçilmiş adın bron (rezerv) edilməsi” xidməti haqqında TƏLİMAT

Hüquqi şəxsin adının bron (rezerv) edilməsi yalnız “Şəxsi” tipli sertifikatlı Asan İmza vasitəsilə mümkündür. Əks halda, istifadəçi kodu ilə sistemə daxil olduqda və ya “İş”, “Dövlət və bələdiyyə” tip sertifikatlı Asan İmza ilə sistemə daxil olaraq hüquqi şəxsin adını bron etmək istədikdə, “*Bu ərizə sadəcə ASAN İmzanın vətəndaş kimi daxil olan istifadəçiləri üçün açıqdır*” mesajı ekrana çıxacaq.

Hüquqi şəxsin adının bron (rezerv) edilməsi aşağıdakı əməliyyatlar üzrə həyata keçirilir**:**

1. Hüquqi şəxsin təsisçisi (istifadəçi) İnternet Vergi İdarəsinin onlayn xidmətlərinin giriş səhifəsinə daxil olur.
2. “Onlayn kargüzarlıq və e-VHF” bölməsini seçir və **Qəbul** düyməsini basır.
3. **Yeni müraciət** düyməsinin basır və siyahıdan “**Hüquqi şəxsin adının bron edilməsi**” bəndini seçir.
4. Aşağıdakı elektron formada “Hüquqi şəxsin adı” daxil edilir.



Bron ediləcək hüquqi şəxsin adını daxil edib (**...**) düyməsini sıxdlqda sistem tərəfindən aşağıdakı yoxlamalar həyata keçirilir:

1. Şəxs tərəfindən yalnız bir ad rezerv edilə bilər, yəni “gözləmədə” olan rezerv ad təyinatı üzrə istifadə edildikdə və ya rezervin qüvvədə olduğu müddət (60 gün) bitdikdə və ya rezerv edilən addan imtina olunduqda həmin şəxs tərəfindən yeni ad rezerv edilə bilər. Rezerv olunma müddəti adın vergi orqanı tərəfindən rezervə qəbul edildiyi gündən hesablanır. Ekrana çıxan mesaj aşağıdakı kimidir:

“Siz artıq "....." adlı hüquqi şəxs adı bron etmisiniz. Bu addan istifadə etdikdən və ya adın qeydiyyata alındığı gündən 60 gün sonra yeni ad bron edə bilərsiniz”

2. Əgər daxil edilən ad sistemdə varsa, “*Hüquqi şəxs artıq mövcuddur*” mesajı, əgər daxil edilən ad orfoqrafik qaydalara uyğun deyilsə, *“Yazdığınız formada hüquqi şəxs üçün ad seçə bilməzsiniz*” mesajı ekrana çıxacaqdır.

3. İstifadəçi tərəfindən bron barədə ərizə vergi orqanında İmtina olunduqda digər bron ərizəsinin göndərilməsi mümkündür. Ad rezerv etmiş şəxs, həmin adı istifadə etməmiş təkrar “Hüquqi şəxsin adının bron edilməsi” müraciət növünü seçərək **Qəbul** düyməsini vurduqda *“Siz artıq hüquqi şəxs adını bron etmisiniz*” mesajı ekrana çıxacaq.

Əgər sistem tərəfindən yoxlama əməliyyatı müsbət həll olunarsa, *“Bu adı istifadə edə bilərsiniz”* mesajı ekrana çıxacaq. İstifadəçi **İrəli** düyməsini basmaqla əməliyyatı davam etdirə və ya **İmtina** düyməsini sıxmaqla bron etmə əməliyyatını dayandıra bilər.



Qəbul düyməsindən sonra sənədin Asan İmza vasitəsilə imzalanması mərhələsi gəlir. İstifadəçi **Asan İmza PİN2** kodunu daxil etməklə sənədi imzalayır.

Sonra növbəti Bildiriş pəncərəsi ekranda əks olunur:



Vergi ödəyicilərinin uçotu idarəsi

Müraciətin qeydiyyata alınması haqqında

BİLDİRİŞ

09.10.2014
(bildirişin tarixi)

ELNUR ƏLƏKBƏROV ƏLİ OĞLU
(Müraciət edənin tam adı)

2BXVE51
(FİN)

Sizin tərəfinizdən göndərilmiş elektron müraciət Vergilər Nazirliyinin AVİS Kargüzarlıq altsistemində 1439010000901000 nömrəsi ilə qeydiyyata alınmışdır.
Müraciətinizə baxılma vəziyyəti ilə onlayn rejimdə sənədin "əməliyyat tarixçəsi"ndə tanış ola bilərsiniz.

Bağla Çap

Sənədə Vergilər Nazirliyinin AVİS Kargüzarlıq altsistemi tərəfindən 16 rəqəmli nömrə verilir və sənəd istifadəçinin qeydiyyata olduğu vergi orqanına göndərilir.

Sənədin nüsxəsi isə istifadəçinin Onlayn kargüzarlığının *Göndərdiklərim* qovluğuna düşür.

QEYD 1: Onlayn Kargüzarlıqda Hüquqi şəxsin qeydiyyatı zamanı əgər bron edilmiş ad daxil edilərsə, bu zaman aşağıdakı pəncərədə göstərildiyi kimi (**...**) düyməsini basdıqda "*Ad bron olunmuşdur*" rekviziti işarələnmiş vəziyyətdə əks olunur.



Əks halda, əgər həmin ad bron olunmamışdırsa, "*Ad bron olunmuşdur*" rekviziti ekranda görünməyəcəkdir.

QEYD 2: Hüquqi şəxsin adının bron edilməsindən imtina olunduqda, bron barədə müraciət etmiş şəxsin e-Qutusunun "Gələnlər" qovluğuna bu barədə sətir düşür.

Həmin sətir üzərinə klik etdikdə imtina barədə aşağıdakı Bildiriş ekrana çıxır:

Bakı şəhəri Vergilər Departamentinin Vergi ödəyicilərinin uçotu idarəsi

Hüquqi şəxsin adının yoxlanılması və sifariş (rezerv) edilməsindən imtina barədə

BİLDİRİŞ

17.07.2014

ELNUR ƏLƏKBƏROV ƏLİ OĞLU

Sizin 1439010000705400 nömrəli elektron kargüzarlıq sənədinə cavab olaraq bildiririk ki, tərəfinizdən göndərilmiş MİLLİ hüquqi şəxsin adı səbəbindən rezerv edilməsindən imtina edilmişdir.

Xahiş edirik başqa adla yenidən müraciət edəsiniz. Təşəkkür edirik.

Bakı şəhəri Vergilər Departamentinin Vergi ödəyicilərinin uçotu idarəsinin rəisi
Kiçik vergi xidməti müşaviri

Fərəcov Ədalət Səlim oğlu

QEYD 3: Hüquqi şəxsin adının bron edilməsi vergi orqanı tərəfindən təsdiq olunarsa, o zaman bu barədə müraciət etmiş şəxsin e-Qutusunun "Gələnlər" qovluğuna aşağıdakı şəkildə göstərildiyi kimi sətir daxil olur.



Həmin sətir üzərinə klik etdikdə bron barədə sənədin qəbul edilməsi barədə aşağıdakı Bildiriş sənədi ekrana çıxır:

Bakı şəhəri Vergilər Departamentinin Vergi ödəyicilərinin uçotu idarəsi

Hüquqi şəxsin adının yoxlanılması və sifariş (rezerv) edilməsi barədə

BİLDİRİŞ

19.09.2014

ELNUR ƏLƏKBƏROV ƏLİ OĞLU

Sizin 1439010000875000 nömrəli elektron kargüzarlıq sənədinə cavab olaraq bildiririk ki, tərəfinizdən yeni yaradacağınız hüquqi şəxs üçün seçdiyiniz CYBER-NET adın rezerv edilməsi barədə sifarişiniz qəbul edilmişdir.

Məlumat üçün qeyd edirik ki, rezerv edilmiş bu ad 60 gün müddətinə Sizin tərəfinizdən hüquqi şəxsin qeydiyyatı məqsədilə istifadə oluna bilər. Həmin müddət bitdikdən sonra - 18.11.2014 tarixdən etibarən rezerv öz qüvvəsini itirir.

Təşəkkür edirik.

Bakı şəhəri Vergilər Departamentinin Vergi ödəyicilərinin uçotu idarəsinin rəisi
Kiçik vergi xidməti müşaviri

Fərəcov Ədalət Səlim oğlu

Hüquqi adın yoxlanılmsı

Hüquqi şəxsin adının aşağıdakı pəncərə vasitəsilə yoxlanılması zamanı (**“Oxşar hüquqi adların axtarılması”**) rezerv edilmiş adın gözləmədə olduğu müddət ərzində ekrana çıxması nəzərə alınmışdır.



Aşağıdakı pəncərədə “**Hüquqi adın yoxlanılmasl**” düyməsi qeyd edildiyi halda, axtarış əməliyyatı yerinə yetirilən zaman bron edilmiş ad da 60 gün ərzində istifadə olunmuş kimi qəbul olunur (ekrana çıxan mesaj : ”*Bu ad istifadə olunur*”).

Əgər 60 gün ərzində bron edilmi ad istifadə olunmamışdırsa, bron edilmə əməliyyatı avtomatik qüvvədən düşür və *“Bu adı seçə bilərsiniz”* məzmunda mesaj ekrana çıxacaqdır: